# BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC

**Maliyyə hesabatları və auditor rəyi**
31 dekabr 2022-ci il tarixində tamamlanan il üzrə

**"16" may 2023-cü il tarixli 2023/08 saylı müqaviləyə əsasən aparılmış auditin nəticəsinə dair auditorun yekun sənədlərinin**

**TƏHVİL - QƏBUL**
**AKTI**

**Bakı şəhəri** **"19" may 2023-cü il**

Biz, aşağıda imza edənlər, **icraçı** – Sərbəst Auditor Pənahov Novruz İsmayıl oğlu və **sifarişçi** – "BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ adından, İdarə Heyətini Sədri Vəliyev Tural Gəray oğlu təsdiq edirik ki, Cəmiyyət ilə bağlanılmış "16" may 2023-cü il tarixli 2023/08 saylı müqavilənin şərtlərinə uyğun olaraq aparılmış auditor xidməti tam şəkildə yerinə yetirilmişdir.

Auditin nəticəsinə görə sifarişçiyə aşağıdakı qaydada sənədlər təhvil verilmişdir:

1. Auditor hesabatı
2. Hesabata əlavələr
3. Müqavilə
4. Təhvil-Qəbul aktı

**Təhvil verdi:**

**İcraçı**
Sərbəst Auditor

Pənahov Novruz İsmayıl oğlu

**Təhvil aldı:**

**Sifarişçi**
"BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL" MMC
İdarə Heyətini Sədri
Vəliyev Tural Gəray oğlu

**MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)**

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC-nin rəhbərliyinə**
**VÖEN 1305837121**

Mən, **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC-nin** 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.
Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC-nin** 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).
Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**
Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC**-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC**-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC-nin** fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC-nin** maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**Sərbəst Auditor** **Pənahov Novruz İsmayıl oğlu**

**19.05.2023** Mob. (050) 216-94-31

AUDİT PROQRAMI

| | |
|---|---|
| Sifarişçi-təsərrüfat subyektinin adı | **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC** |
| Auditlə əhatə edilən dövr | 01.01.2022-ci il tarixdən 31.12.2022-ci ilədək |
| Auditin başlanması və sona çatması vaxtı | "16" may 2023-cü ildən "19" may 2023-cü ilədək |
| iş günlərinin (adam saatlarının) miqdarı | "4" iş günü (adam günü) |
| **Auditor** | **Pənahov Novruz İsmayıl oğlu** |

| Sira №-si | Auditin bölmələri üzrə auditor prosedurlarının siyahısı | İşin müddəti | İcraçı | Auditorun iş sənədləri | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | | 5 | 6 |
| 1. | Sifarişçi-təsərrüfat subyektinin təsis sənədlərinin, dövlət və vergi qeydiyyatı haqqında şəhadətnamələrin Azərbaycan Respublikasənən qanunvericiliyinə uyğunluğunun yoxlanılması | "16" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Sifarişçi-təsərrüfat subyektinin nizamnamə fondunun formalaşdırılmasına dair arayış | |
| 2. | Pul vəsaitlərinin auditi, o cümlədən:<br>- kassa əməliyyatlarının auditi<br>- bankda olan hesablar üzrə əməliyyatların auditi | "16" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Bank və kassa üzrə vəsaitlərin hərəkətinə dair arayış | |
| 3. | Hesablaşmaların auditi, o cümlədən:<br>- büdcə ilə hesablaşmaların auditi<br>- təhtəlhesab şəxslərlə hesablaşmaların auditi<br>- debitor və kreditorlarla hesablaşmaların auditi<br>- veksellər üzrə əməliyyatların auditi<br>- uzunmüddətli maliyyə qoyuluşlarının auditi<br>- hazır məhsulun (iş, xidmət)satışının auditi<br>- sifarişçi və podrat təşkilatlarla hesablaşmalarin auditi<br>- alıcı təşkilatlarla hesablaşmaların auditi | "17" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Debitor və kreditor borclarına dair arayış<br>Uzunmüddətli maliyyə qoyuluşlarına dair arayış<br>Büdcəyə vergilərin hesablanıb ödənilməsinə dair arayış | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4. | Əsas vəsaitlər üzrə əməliyyatların auditi, o cümlədən:<br>-.əsas vəsaitlərin daxil olması və çıxması üzrə əməliyyatların auditi<br>- əsas vəsaitlərinin amartizasiya ayırmalarının auditi<br>- əsas vəsaitlərinin təmiri üzrə əməliyyatlarının auditi | "17" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Əsas vəsaitlərin hərəkətinə dair arayış<br>Əsas vəsaitlərin yenidən qitmətləndirilməsinə dair arayış | |
| 5. | Maddi dəyərlilərlə əlaqədar əməliyyatların auditi, o cümlədən:<br>- maddi dəyərlilərin alınması və satılması üzrə əməliyyatlarən auditi<br>- məhsul istehsalına və mal-materiallarının düzgün silinməsi və auditi<br>- müvəqqəti tikililərlə (tituldan kənar), azqiymətli və tez xarab olan əşyalarla əməliyyatların auditi | "17" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Maddi dəyərlilərin hərəkətinə daur arayış | |
| 6. | Sosial sığorta və əmək üzrə göstəricilərin yerinə yetitilməsinin auditi, o cümlədən:<br>-işçi heyəti ilə hesablaşmaların auditi<br>-məcburi sosial sığorta və təminat üzrə vəsaitin düzgün hesablanılması və istifadə edilməsinin auditi | "18" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Əmək haqqının hesablanıb ödənilməsinə dair arayış | |
| 7. | Məhsul istehsalına (iş, xidmət) və satışına çəkilən xərclərin auditi, o cümlədən:<br>- gələcək dövrün xərclərinin auditi<br>- təsərrüfata xidmət edən köməkçi və yardımçı istehsal xərclərin auditi:<br>- ümumi təsərrüfat xərclərinin auditi<br>-zay məhsuldan əmələ gələn itkilərin auditi<br>- hazır məhsulun (iş,xidmət) satışının auditi<br>- sifarişçi və podrat təşkilatlarla hesablaşmaların auditi<br>- alıcı təşkilatlarla hesablaşmaların auditi | "18" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Məhsul istehsalına və satışına dair arayış<br>Hazır məhsulun hərəkətinə dair arayış<br>Gəlir və xətclərə dair aryış | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 8. | Xüsusi vəsaitlərin auditi, o cümlədən:<br>-nizamnamə kapitalının auditi<br>-mənfəətin düzgün müəyyən edilməsi və istifadəsinin auditi<br>-xüsusi təyinatlı fondların yaradılması və istifadəsinin auditi<br>-məqsədli maliyyələşmələr və daxilolmaların auditi<br>-bank kreditlərinin alınıb istifadə edilməsi və ödənilməsi üzrə əməliyyatların auditi<br>-qısamüddətli və uzunmüddətli borcların auditi | "19" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Mənfəətin formalaşdırılmasına dair arayış<br>Xüsusi təyinatlı fondların yaradılması və istifadəsinə dair arayış<br>Banklardan alınan kreditlərə dair arayış | |
| 9. | Kapital qoyuluşunun auditi | "19" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Auditin nəticəsinə dair arayış | |
| 10. | Mühasibat uçotunun vəziyyətinin və hesabatların düzgünlüyünün Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğunluğunun auditi | "19" may 2023 | Pənahov Novruz İsmayıl oğlu | Auditin nəticəsinə dair arayış | |

**Auditor** **Pənahov Novruz İsmayıl oğlu**

Azərbaycan Respublik-nın Auditorlar Palatası * Pənahov Novruz İsmayıl * Sərbəst Auditor * Independent Auditor * Novruz İsmail Panahov * Chamber of Auditors of Azerbaijan Rep.

# BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC
## 31 DEKABR 2022-ci il tarixə MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR

***BALANS***

| AKTİVLƏR | ASSETS | Manatla |
|---|---|---|
| **1. Banklar və digər Maliyyə İnstitutları ilə nəğd pul və balanslar** | **1. Cash and balances with banks and other FIs** | **840651,83** |
| 1.1 – Nəğd Pul | 1.1 – Cash | 31484.74 |
| 1.2 – Banklar və digər Maliyyə İnstitutları ilə hesablar | 1.2 – Accounts with Banks and other FIs | 809167.09 |
| | | |
| **2. Qiymətli kağızlar və uzun müddətli alacaqlar** | **2. Investments and Long–term receivable** | |
| **3. Kreditlər (3.1+3.2-3.3)** | **3. Loans (3.1+3.2-3.3)** | **6439788.00** |
| | | |
| 3.1 – Cəmi qalıq kreditlər – qısa müddətli | 3.1 – Total loans outstanding – short term | 6439788.00 |
| 3.2 - Cəmi qalıq kreditlər – uzun müddətli | 3.2 - Total loans outstanding – long term | |
| 3.3 – Çıx : Mümkün itkilər üçün Rezerv (-) | 3.3 – Less : Reserves for possible losses (-) | |
| **4. Alınacaq faiz və haqqlar – xalis** | **4. Interest and fees receivable – net** | **1029457.00** |
| 4.1 – Alınacaq faiz və haqqlar – qısa müddətli | 4.1 – Interest and fees receivable– short term | 1029457.00 |
| 4.2 - Alınacaq faiz və haqqlar– uzun müddətli | 4.2 - Interest and fees receivable– long term | |
| **5. Mebel və Avadanlıq** | **5. Furniture and Equipment** | **467517.56** |
| 5.1 Digər əsas vəsait | 5.1 Other fixed assets | 396920.77 |
| 5.2 Proqram təminatı | 5.2 Software | 70596.79 |
| 5.3 Lisenziyalar | 5.3 License | |
| **6. Yığılmış Amortizasiya - Mebel və Avadanlıq (-)** | **6. Accumulated Depreciation-Furniture and Equipment (-)** | |
| 6.1 Mebel və avadanlıq üzrə yığılmış köhnəlmə | 6.1 Accumulated Depreciation-Furniture and Equipment (-) | |
| 6.2 Kompüterlər və rabitə avadanlıqları üzrə yığılmış köhnəlmə | 6.2 Accumulated Depreciation-Furniture and Equipment (-) | |
| **7. Digər Alacaqlar** | **7. Other Receivables** | |
| **8. Qabaqcadan ödənilmiş xərclər** | **8. Prepaid Expenses** | |
| | | |
| **9. Digər aktivlər** | **9. Other assets** | **579839.50** |
| **CƏMİ AKTİVLƏR** | **TOTAL ASSET** | **9357253.89** |
| | | |
| **PASSİVLƏR VƏ KAPİTAL** | **LIABILITIES AND EQUITY** | |
| **10. Üzvlərdən Depozit** | **10. Members Deposits** | |
| **11. Xarici kreditlər /borcalınan** | **11. External credits / borrowings** | **4495024.15** |

| | | |
|---|---|---|
| 11.1 Kredit Agentliyi | 11.1 Implementing Agency | |
| 11.2 Banklar | 11.2 Bank – loans | |
| 11.3 Digər | 11.3 Other borrowings | **4495024.15** |
| **12. Ödəniləcək faizlər** | **12. Interest payable** | |
| **13. Kreditor hesabları (ödəniləcək)** | **13. Accounts payable** | |
| 13.1 Ödəniləcək Məvacib | 13.1 Wages Payable | |
| **14. Hesablanmış xərclər və kompensasiya** | **14. Accrued expenses and provisions** | |
| **15. Dövlət büdcəsi və digər təşkilatlarla hesablaşmalar** | **15. Taxes payable** | **885146.46** |
| 15.1 Dövlət büdcəsinə ödəniləcək vəsaitlər | 15.1 State budget | |
| 15.2 Yerli büdcələrə ödəniləcək vəsaitlər | 15.2 Local budget | |
| 15.3 Vergilər nazirliyinə ödəniləcək vəsaitlər | 15.3 Ministry of tax | 885146.46 |
| 15.4 Dövlət fondlarına və digər fondlara ödəniləcək vəsaitlər | 15.4 State and other funds | |
| **16. Digər passiv hesablar** | **16. Other liability accounts** | **366805.92** |
| | | |
| **CƏMİ PASSİVLƏR** | **TOTAL LIABILITIES** | |
| | | |
| **17. Kapital Hesabları** | **17. Equity Accounts** | |
| 17.1 – Nizamnamə kapitalı | 17.1 – Authorized capital | **300000.00** |
| 17.2 – Ehtiyatlar (keçən ilə) | 17.2 – Reserves (previous year) | |
| 17.3 – Qrant | 17.3 – Donated Capital | |
| 17.4 – Əvvəlki illərin xalis mənfəət və zərəri | 17.4 – Net profit or loss from previous years | **3310277.36** |
| 1.75 – Cari ilə xalis gəlir (zərər) | 17.5 – Net income (loss) for the current year | |
| **CƏMİ KAPİTAL** | **TOTAL EQUITY** | **3610277.36** |
| | | |
| **CƏMİ PASSİVLƏR VƏ KAPİTAL** | **TOTAL LIABILITIES AND EQUITY** | **9357253.89** |

**AKTIF-PASIF** **0,00**

*Mənfəət və Zərər Hesabatı*

| Gəlir və xərclər | Income and expenses | Manatla |
|---|---|---|
| **1. Faiz Gəliri** | **1. İnterest Income** | **7508270.00** |
| 1.1 Kredit | 1.1 Lons | 7508270.00 |
| 1.2 Banklar və digər Maliyyə institutları hesablar | 1.2 Accounts with banks and other FIs | |
| 1.3 Qiymətli kağızlar və uzun müddətli depozitlər | 1.3 Investments and long term | |
| 1.4 Digərləri | 1.4 Others | -48960.00 |
| **2. Qeyri-Faiz Gəliri** | **2. Non Interest Income** | |
| 2.1 Kİ kommision gəlirləri | 2.1 CU Fees and charges | |
| 2.2 Digər | 2.2 Others | |
| **3. Ümumi Gəlir (3=1+2)** | **3. Gross Income (3=1+2)** | **7459310.00** |
| **4. Maliyyə Xərcləri – Xarici Kredit** | **4. Financial Costs- External Credit** | |
| **5. Ümumi Gəlir (5=3-4)** | **5. Gross Margin (5=3-4)** | **7459310.00** |
| **6. Ümumi və İnzibati Xərclər** | **6. General and Administrative Expenses** | **3033570.00** |
| 6.1 Əmək haqqı | 6.1 Wages | 1111340.00 |
| 6.2 Mükafatlar | 6.2 Bonusus | |
| 6.3 Sosial müdafiə/məşğulluq fondu xərcləri | 6.3 Social security fund | 210620.00 |
| 6.4 Əmək haqqı ilə bağlı digər xərclər | 6.4 Other cost related with employtment | |
| 6.5 Təlim xərcləri | 6.5 Training costs | |
| 6.6 Elektrik enerjisi və isitmə xərcləri | 6.6 Energy and heating expenses | |
| 6.7 Kommunikasiya xərcləri | 6.7 Communication expenses | |
| 6.8 Tədarük (dəftərxana) xərcləri | 6.8 Procurement of supplies | |
| 6.9 İcarə xərclər | 6.9 Rental costs | 140230.00 |
| 6.10 Ezamiyyə xərci | 6.10 Travel expenses | |
| 6.11 Amortizasiya və köhnəlmə | 6.11 Depreciation and amortization | 43600.00 |
| 6.12 Audit xərcləri | 6.12 Audit expenses | |
| 6.13 Haqlar və rüsumlar (məhkəmə, notariat və lisenziya | 6.13 Legal, notary and license | |
| 6.14 Kreditlə əlaqədar xərclər (bank və qiymətləndirmə | 6.14 Loans servicing expenses | |
| 6.15 Marketinq xərcləri | 6.15 Marketing expenses | |
| 6.16 Proqram təminatı ilə bağlı xərclər | 6.16 Software expenses | |
| 6.17 Üzvlük haqqı | 6.17 Member | |
| 6.18 Digər | 6.18 Other | 1527790.00 |
| **7. Kredit İtkiləri Ehtiyatı** | **7. Loan Loss Reserve Expense** | |

| | | |
|---|---|---|
| **Xərci** | | |
| **8. Əməliyyatlardan Xalis Gəlir (8=5-6-7)** | **8. Net Income from Operations (8=5-6-7)** | **4425730.00** |
| **9. Keçmiş Dövrə Tənzimləmələr (Xalis) (-or+)** | **9. Previous Period Adjustments (Net) (- or+)** | |
| **10. Gəlir Vergisi ödədikdən əvvəl Xalis Gəlir (Zərər) (10=8+9)** | **10. Net Income (Loss) before Income Tax (10=8+9)** | **4425730.00** |
| **11. Mənfəət (və ya Zərər) üzrə Vergi** | **11. Tax on Profit (or Loss) on Ordinary Activities** | **885150.00** |
| **12. Vergi ödədikdən sonra Xalis (Zərər) (12=10-11)** | **12. Net Income (Loss) after Taxes (12=10-11)** | **3540590.00** |

**Qeyd 1: Giriş**

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 22 sentyabr 2021-ci il tarixli SA/050 qeyydiyyat nömrə ilə auditor fəaliyyəti göstərmək üçün icazə alan Sərbəst Auditor Pənahov Novruz İsmayıl oğlu ilə "BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ adından, İdarə Heyətinin Sədri Vəliyev Tural Gəray oğlu (bundan sonra BOKT adlandırılacaq) ilə bağlanmış 16 may 2023-cü il tarixli 2023/08 saylı müqaviləyə əsasən 01.01.2022-ci il tarixdən 31.12.2022-ci il tarixədək olan dövrün maliyyə hesabatlarının (Balans Hesabatı, Mənfəət və Zərər Hesabatı, Pul Vəsaitlərinin Hərəkəti Hesabatı ) audutini apardım.

Auditə 16 may 2023-cü il tarixdə başlandı və 19 may 2023-cü il tarixdə başa çatdı.

Audit ilə əhatə olunan dövr ərzində maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdehdirlər:

İH Sədri : Vəliyev Tural Gəray oğlu (tam audit dövru)
Baş mühasib: Həsənov Tural Mirzə oğlu (tam audit dövru)

**Qeyd 2: Əvvəlki auditin nəticəsi**

Əvvəlki dövrlərə audit yoxlamasını Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən icazə əsasında auditor fəaliyyəti göstərən AZEL AUDİT MMC tərəfindən müsbət rəy verilmişdir.

**Qeyd 3: Sifarişçi haqqında ümumi məlumat**

BOKT Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət vergi Xidmətinin Milli Gəlirlər Baş idarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatına 27.12.2018-ci il tarixdə alınmışdır. Ona 13.08.2022-ci il tarixli 2001020042932000 saylı dövlət reyestrindən çıxarış verilmişdir.
Bundan başqa BOKT vergi ödəyicisi kimi 1305837121 nömrəli VÖEN verilmişdir. BOKT-a 18.09.2022-ci il tarixdə BKT-34 saylı Mərkəzi Bank tərəfindən kredit verilməsi üçün lisenziya verilmişdir.

BOKT-un hüquqi ünvanı: Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli, ev 41 məhəllə 1965.

BOKT-un nizamnamə fondu 300000 manat məbləğində olmaqla, DOLGASHEV MAXİM -ə məxsus 100% Qazaxstan Respublikası üzrə investisiyadan ibarətdir.

**Qeyd 4: Hesabat əsası**

İttifaqda mühasibat uçotu Azərbaycan Respublikası "Mühasibat uçotu haqqında" Qanununa, Vergi qanunvericiliyinə, Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən

düzəldilmişdir ki, onlar bütün mühüm aspektlər baxımından Beynəlxalq Mühasibat Standartları Komitəsinin qəbul etdiyi Beynəlxalq Mühasibat Standartlarına uyğun olsun.

**Qeyd 4.1: Hesabat əsası (davamı)**

Auditin məqsədi 31.12.2022-ci il tarixə BOKT-un maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması, hesabatların düzgün tərtib olunmasının yoxlanılması, gəlir və xərclərin düzgün müəyyən edilməsininin təsdiq olunmasıdır.

Işin yerinə yetirilməsi zamanı audit qrupu "Audit fəaliyyətinin professional normaları", "Auditin Beynəlxalq Standartları" və həmçinin hamı tərəfindən qəbul olunmuş audit metodlarını rəhbər tutmuşdur.

Sifarişçi təqdim etdiyi hesabatlardakı ilkin məlumatlara görə vahid məsuliyyət daşıyır.

Maliyyə hesabatları Azərbaycan Respublikasının milli valyutası olan Manatla təqdim edilir.

**Qeyd 5: Mühüm mühasibat prinsipləri**

Aşağıdakı mühüm mühasibat prinsipləri əlavə edilən maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmişdir:

**Mühasibat əsası**

BOKT-un maliyyə hesabatları ilkin dəyər prinsipi və tətbiq edilən BMS əsasında hazırlanmışdır.

**Hiperinflyasiya şəraitində maliyyə hesabatları**

**Əlaqəli tərəflər**

Əlavə edilən maliyyə hesabatları məqsədilə tərəflər bu halda əlaqəli hesab edilir ki, bir tərəf maliyyə və əməliyyat qərarlarının qəbul edilməsi zamanı o biri tərəfə nəzarət etmək və ya o biri tərəfə əhəmiyyətli təsir göstərmək qabiliyyətinə malik olsun.

**Nəğd vəsaitlər və nəğd vəsaitlərin ekvivalentləri**

Nəğd vəsaitlər və nəğd vəsaitlərin ekvivalentlərinə kassada olan nəğd pullar, banklarda olan hesablaşma və valyuta hesablarındakı qalıqlar aiddir.

**Debitorlar, kreditorlar, şübhəli və ümidsiz borclar üzrə ehtiyatlar**

Debitorlar və kreditorlar ödənilməmiş məbləğlərdə yarandığı dövrlərdə əks edilmişdir. Ümidsiz və şübhəli borclar üzrə ehtiyat rəhbərlik tərəfindən debitorların və avansların geri alınmasının qiymətləndirilməsinə əsaslanır.

Ehtiyatların təxminedilməsi fərziyyələrin istifadəsini tələb edir. Ehtiyat həcminin müəyyən edilməsi zamanı nəzərə alınan əsas amillər debitor borclarının artması, tərkibi və keyfiyyəti, vaxtı keçmiş debitorların həcmi, mövcud iqtisadı vəziyyətə uyğunluğudur.

Ödənilə bilməyən debitorlar və avanslar balansdan silinir və ümidsiz və şübhəli borclar üzrə ehtiyatlar yaradılmadığı üçün birbaşa zərərə aid edilir.

Vaxtı keçmiş kreditor borcları tələb olunmadığı halda gəlirə aid edilir.

**İnvestisiyalar**

İnvestisiyalar ilkin maya dəyərində əks edilən kapital investisiyalraından ibarətdir. Alınmış faizlər ayrıca olaraq faiz gəlirinə aid edilir. Bazar dəyərindəki azalma daimi hesab edilmədikdə, maliyyə hesabatlarında əks etdirilmir.

**Əsas vəsaitlər və qeyri-maddi aktivlər**

Əsas vəsaitlər və qeyri-maddi aktivlər toplanmış köhnəlməni çıxmaqla qalıq dəyərdə göstərilir. Əsas vəsaitlərin təmir və saxlama xərcləri, o cümlədən binaların və icarəyə götürülmüş binanın təmirinə çəkilən xərclər bu halda aktivləşdirilir ki, bu təmir və saxlama müvafiq aktivlərin iqtisadı həyatının uzanması və ya əhəmiyyətli şəkildə yaxşılaşması ilə nəticələnir və aktivin güman edilən iqtisadi həyatı və ya icarənin müddəti ərzində, bunlardan hansı daha az olarsa, bərabər aşınma üsulu əsasında köhnəlmə hesablanır.

Sair təmir və saxlama xərcləri çəkildiyi zaman xərcə silinir.

**Gəlir və xərclərin qeydə alınması**

Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun gəlirlər və xərclər kassa metodu əsasında müəyyən edilir.

**Qeyd 6: Pul vəsaitləri və sair qısamüddətli maliyyə aktivləri**

31.12.2022-ci il tarixə BOKT-un pul vəsaitləri və sair qısamüddətli maliyyə aktivlərinin cəmi 840651.83 manat təşkil etmişdir ki, bu da aşağıdakı kimi olmuşdur:

| | | |
|---|---|---|
| **1. Banklar və digər Maliyyə İnstitutları ilə nəğd pul və balanslar** | **1. Cash and balances with banks and other FIs** | **840651,83** |
| 1.1 – Nəğd Pul | 1.1 – Cash | 31484.74 |
| 1.2 – Banklar və digər Maliyyə İnstitutları ilə hesablar | 1.2 – Accounts with Banks and other FIs | 809167.09 |

Kassa vasitəsilə nəğd əməliyyatlar Azərbaycan Respublikasında fəaliyyətdə olan qanun və təlimatlara uyğun aparılır.

**Qeyd 7: Kreditlər**

31.12.2022-ci il tarixə verilmiş kreditlərin qalıqı **6439788.00** manat təşkil etmişdir.

**Qeyd 7.1: Alınacaq faiz və haqqlar**

31.12.2022-ci il tarixə BOKT-un faiz və haqqlar a□a□□dak□ kimidir:

| | | AZN |
|---|---|---|
| 4 | Alınacaq faiz və haqlar | |
| 4.1 | Alınacaq faiz və haqqlar-qısamüddətli | 1029457.00 |
| 4.2 | Alınacaq faiz və haqqlar-uzunmüddətli | |
| | | |
| | | |
| **Alınacaqların cəmi (4.1+4.2)** | | **1029457.00** |

**Qeyd 8 1: Mebel və avadanlıqlar, binalar və onların köhnəlməsi**

31.12.2022-ci il tarixə BOKT-un əsas vəsaitləri aşağıdakı kimidir:

| | | |
|---|---|---|
| **5. Mebel və Avadanlıq** | **5. Furniture and Equipment** | **467517.56** |
| 5.1 Digər əsas vəsait | 5.1 Other fixed assets | 396920.77 |
| 5.2 Proqram təminatı | 5.2 Software | 70596.79 |
| 5.3 Lisenziyalar | 5.3 License | 0.00 |

**Qeyd 8_2: Dig□r aktivl□r**

31.12.2022-ci il tarixə BOKT-un dig□r aktivlərinin cəmi **579839.50** manat təşkil etmişdir.

**Qeyd 9: Aktivlərin cəmi**

31.12.2022-ci il tarixə BOKT-un aktivlərinin cəmi **9357253.89** manat təşkil etmişdir.

**Qeyd 10: Kapital**

31.12.2022-ci il tarixə BOKT-un kapitalı **3610277.36** manat təşkil etmişdir ki, bu da aşağıdakı kimidir:

| **17. Kapital Hesabları** | **17. Equity Accounts** | |
|---|---|---|
| 17.1 – Nizamnamə kapitalı | 17.1 – Authorized capital | **300000.00** |
| 17.2 – Ehtiyatlar (keçən ilə) | 17.2 – Reserves (previous year) | |
| 17.3 – Qrant | 17.3 – Donated Capital | |
| 17.4 – Əvvəlki illərin xalis mənfəət və zərəri | 17.4 – Net profit or loss from previous years | **3310277.36** |
| 1.75 – Cari ilə xalis gəlir (zərər) | 17.5 – Net income (loss) for the current year | |
| **CƏMİ KAPİTAL** | **TOTAL EQUITY** | **3610277.36** |

**Qeyd 11: Fiziki □□xsl□r qar□□s□nda □hd□likl□r ( borcalınan )**

31.12.2022-ci il tarixə BOKT-un Fiziki şəxslər qarşısında öhdəlikləri a□a□□dak□ kimidir.

| **11. Xarici kreditlər /borcalınan** | **11. External credits / borrowings** | **4495024.15** |
|---|---|---|
| 11.1 Kredit Agentliyi | 11.1 Implementing Agency | |
| 11.2 Banklar | 11.2 Bank – loans | |
| 11.3 Digər | 11.3 Other borrowings | 4495024.15 |

**Qeyd 12_1. Digər öhdəlikləri.**

31.12.2022-ci il tarixə BOKT-un Digər öhdəlikləri aşağıdakı kimidir.

| **16. Digər passiv hesablar** | **16. Other liability accounts** | **366805.92** |
|---|---|---|

**Qeyd 12_2. Mənfəət vergisi üzrə öhdəlikləri.**

31.12.2022-ci il tarixə BOKT-un Mənfəət vergisi üzrə **885146.46** manatd□r.

**Qeyd 13: BOKT-un gəlirləri**

BOKT-un 2022-ci il üzrə gəlirləri:

| Gəlir və xərclər | Income and expenses | Manatla |
|---|---|---|
| **1. Faiz Gəliri** | **1. İnterest Income** | **7508270.00** |
| 1.1 Verilən kredit | 1.1 Lons | 7508270.00 |
| 1.2 Banklar və digər Maliyyə institutları hesablar | 1.2 Accounts with banks and other FIs | |
| 1.3 Qiymətli kağızlar və uzun müddətli depozitlər | 1.3 Investments and long term | |
| 1.4 Digərləri | 1.4 Others | -48960.00 |
| **2. Qeyri-Faiz Gəliri** | **2. Non Interest Income** | |
| 2.1 Kİ kommision gəlirləri | 2.1 CU Fees and charges | |
| 2.2 Digər | 2.2 Others | |
| **3. Ümumi Gəlir (3=1+2)** | **3. Gross Income (3=1+2)** | **7459310.00** |
| **4. Maliyyə Xərcləri – Xarici Kredit** | **4. Financial Costs- External Credit** | |
| **5. Ümumi Gəlir (5=3-4)** | **5. Gross Margin (5=3-4)** | **7459310.00** |

**Qeyd 14: BOKT-un xərcləri**

BOKT-un 2022-ci il üzrə xərcləri aşağıdakı kimi olmuşdur:

| xərclər | expenses | Manatla |
|---|---|---|
| **6. Ümumi və İnzibati Xərclər** | **6. General and Administrative Expenses** | **3033570.00** |
| 6.1 Əmək haqqı | 6.1 Wages | 1111340.00 |
| 6.2 Mükafatlar | 6.2 Bonusus | |
| 6.3 Sosial müdafiə/məşğulluq fondu xərcləri | 6.3 Social security fund | 210620.00 |
| 6.4 Əmək haqqı ilə bağlı digər xərclər | 6.4 Other cost related with employtment | |
| 6 5 Təlim xərcləri | 6.5 Training costs | |
| 6.6 Elektrik enerjisi və isitmə xərcləri | 6.6 Energy and heating expenses | |
| 6.7 Kommunikasiya xərcləri | 6.7 Communication expenses | |
| 6.8 Tədarük (dəftərxana) xərcləri | 6.8 Procurement of supplies | |
| 6.9 İcarə xərclər | 6.9 Rental costs | 140230.00 |
| 6.10 Ezamiyyə xərci | 6.10 Travel expenses | |
| 6.11 Amortizasiya və köhnəlmə | 6.11 Depreciation and amortization | 43600.00 |
| 6.12 Audit xərcləri | 6.12 Audit expenses | |

| | | |
|---|---|---|
| 6.13 Haqlar və rüsumlar (məhkəmə, notariat və lisenziya | 6.13 Legal, notary and license | |
| 6.14 Kreditlə əlaqədar xərclər (bank və qiymətləndirmə | 6.14 Loans servicing expenses | |
| 6.15 Marketinq xərcləri | 6.15 Marketing expenses | |
| 6.16 Proqram təminatı ilə bağlı xərclər | 6.16 Software expenses | |
| 6.17 Üzvlük haqqı | 6.17 Member | |
| 6.18 Digər | 6.18 Other | 1527790.00 |
| **7. Kredit İtkiləri Ehtiyatı Xərci** | **7. Loan Loss Reserve Expense** | |
| **8. Əməliyyatlardan Xalis Cəlir (8=5-6-7)** | **8. Net Income from Operations (8=5-6-7)** | **4425730.00** |
| **9. Keçmiş Dövrə Tənzimləmələr (Xalis) (-or+)** | **9. Previous Period Adjustments (Net) (- or+)** | |
| **10. Gəlir Vergisi ödədikdən əvvəl Xalis Gəlir (Zərər) (10=8+9)** | **10. Net Income (Loss) before Income Tax (10=8+9)** | **4425730.00** |
| **11. Mənfəət (və ya Zərər) üzrə Vergi** | **11. Tax on Profit (or Loss) on Ordinary Activities** | **885150.00** |
| **12. Vergi ödədikdən sonra Xalis (Zərər) (12=10-11)** | **12. Net Income (Loss) after Taxes (12=10-11)** | **3540590.00** |

**Qeyd 15: Nəticə və təkliflər**

1. Kredit müqavilələrı bağlanılan zaman müqavilələrin maddələrinə ciddi fikir verilsin.
2. Kredit BOKT-un Nizamnaməsinə uyğun orqan iclasları keçirilməsi müddətlərinə fikir verilsin.
3. Əmək məcəlləsinin , Vergilər məcəlləsinin eləcə də digər qanunvericiliyə gündəlik əməl olunmasına mütəmadi fikir verilsin.

Maliyyə hesabatı 2 (iki) nüsxədən ibarət tərtib olunmuşdur.

Sifarişçi təqdim etdiyi hesabatlardakı ilkin məlumatlara görə vahid məsuliyyət daşıyır.

**Sərbəst Auditor:** **Pənahov Novruz İsmayıl oğlu**

**Tanış oldu:**

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC -nin**
**İdarə Heyətinin sədri:** **Vəliyev Tural Gəray oğlu**
**Baş mühasib:** **Həsənov Tural Mirzə oğlu**

## CƏDVƏL BKT 2. Mühasibat Balansı

(min manatla)

| | Balansın maddələri | Cari ilin hesabat dövrü | |
|---|---|---|---|
| | | Cəmi | Xarici valyutada (manat ekvivalenti) |
| | 1 | 2 | 3 |
| | **AKTİVLƏR** | | |
| 1 | Nağd vəsait və hesab qalıqları | 840.65 | 0.00 |
| 1.1 | Nağd vəsait | 31.48 | |
| 1.2 | Cari hesablar | 809.17 | 0.00 |
| 2 | Banklarda yerləşdirilmiş müddətli depozitlər | 0.00 | 0.00 |
| 2.3.1 | Rezident | | |
| 2.3.2 | Qeyri rezident | | |
| 3 | İnvestisiyalar | | |
| 4 | Qiymətli kağızlar | 0.00 | 0.00 |
| 4.1 | Dövlət qiymətli kağızları | | |
| 4.2 | Korporativ qiymətli kağızları | | |
| 5 | Müştərilərə verilən kreditlər | 6,439.79 | |
| 5.1 | Müştərilərə verilən kreditlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyat | | |
| 5.2 | Xalis kreditlər (5-ci sətir çıx 5.1-ci sətir) | 6,439.79 | 0.00 |
| 6 | Maliyyə institutlarına verilən kreditlər | | |
| 6.1 | Maliyyə institutlarına verilən kreditlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyat | | |
| 6.2 | Maliyyə institutlarına xalis kreditlər (6-cı sətir çıx 6.1-ci sətir) | 0.00 | 0.00 |
| 7 | Əsas vəsaitlər (amortizasiya çıxılmaqla) | 396.92 | |
| 7.1 | BOKT işində istifadə olunan əsas vəsaitlər | | |
| 8 | Balansdankənar aktivlər üzrə mümkün zərərlərinin ödənilməsi üçün xüsusi ehtiyatlar | | |
| 9 | Qeyri-maddi aktivlər (amortizasiya çıxılmaqla) | 70.60 | |
| 10 | Digər aktivlər (ehtiyat çıxılmaqla) | 1,609.30 | 0.00 |
| 11 | **Aktivlərin cəmi** | 9,357.25 | 0.00 |
| | **PASSİVLƏR** | | |
| | **Öhdəliklər** | | |
| 1 | Cəlb edilmiş vəsaitlər | 0.00 | 0.00 |
| 1.1 | Bankların kreditləri, | 0.00 | 0.00 |
| 1.1.1 | Rezident | | |
| 1.1.2 | Qeyri-rezident | | |
| 1.2 | Digər maliyyə institutlarının (banklardan başqa) kreditləri | 0.00 | 0.00 |
| 1.2.1 | Rezident | | |
| 1.2.2 | Qeyri-rezident | | |
| 1.3 | Girov əmanətləri | | |
| 2 | Qiymətli kağızlar | | |
| 3 | Mərkəzi idarəetmə orqanlarının vəsaitləri | | |
| 4 | Digər öhdəliklər | 5,746.98 | 4,495.02 |
| 5 | **Öhdəliklərin cəmi** | 5,746.98 | 4,495.02 |
| | **Kapital** | | |
| 6 | Nizamnamə kapitalı | 300.00 | |
| 7 | Qrantlar (artan yekunla) | | |
| 7.1 | Cari ilin qrantları | | |
| 8 | Bölüşdürülməmiş xalis mənfəət (zərəri) | 3,310.28 | |
| 8.1 | Keçmiş illərin xalis mənfəəti (zərəri) | -230.31 | |
| 8.2 | Cari ilin xalis mənfəəti (zərəri) | 3,540.59 | |
| 8.3 | Kapital ehtiyatı | | |
| 9 | Ehtiyatlar | | |
| 10 | **Kapitalın cəmi** | 3,610.28 | |
| 11 | **Öhdəliklər və kapital** | 9,357.25 | |

Azərbaycan Respublik-nın Auditorlar Palatası Pənahov Novruz İsmayıl Sərbəst Auditor Independent Auditor Novruz Ismail Panahov Chamber of Auditors of Azerbaijan Rep.

19.05.23

Azərbaycan Respublikası Azerbaijan Republic Bank Olmayan Kredit Təşkilatı AZPUL Məhdud Məsuliyyətli Cəmiyyət Limited Liability Company

# CƏDVƏL BKT 1. Mənfəət və zərərlər haqqında hesabat

(min manatla)

| | Gəlir və xərclərin maddələri | İlin əvvəlindən hesabat tarixinədək, hesabat tarixi də daxil olmaqla |
|---|---|---|
| | 1 | 2 |
| 1 | **Faiz gəlirləri, cəmi** | **7,508.27** |
| 1.1 | Verilmiş kreditlər üzrə | **7,508.27** |
| 1.1.1 | Sənaye | |
| 1.1.2 | Kənd təsərrüfatı | |
| 1.1.3 | Tikinti | |
| 1.1.4 | Nəqliyyat | |
| 1.1.5 | İnformasiya və Rabitə | |
| 1.1.6 | Ticarət | |
| 1.1.7 | Digər qeyri-istehsal və xidmət sahəsi | |
| 1.1.8 | Şəxsi məqsədlər üçün fiziki şəxslərə | **7,508.27** |
| 1.1.8.1 | Yaşayış sahəsinin alınması | |
| 1.1.8.2 | Yaşayış sahəsinin tikintisi və təmirinə | |
| 1.1.8.3 | Şəxsi istehlak | 7,508.27 |
| 1.1.8.4 | Avtomobil | |
| 1.1.8.5 | Digər | |
| 1.2 | Maliyyə institutlarına verilən kreditlər üzrə gəlirlər | |
| 1.3 | İnvestisiyalar üzrə gəlirlər | |
| 1.4 | Qiymətli kağızlar üzrə gəlirlər, cəmi | **0.00** |
| 1.4.1 | dövlət qiymətli kağızları | |
| 1.4.2 | korporativ qiymətli kağızları | |
| 1.5 | Faizli cari hesablar üzrə gəlirlər | |
| 1.6 | Maliyyə müəssələrindəki depozitlər üzrə gəlirlər, o cümlədən, | |
| 1.6.1 | qeyri-rezident maliyyə müəssilərindəki depozitlər üzrə gəlirlər | |
| 2 | **Faiz xərcləri cəmi:** | **0.00** |
| 2.1 | banklardan cəlb olunmuş kreditlər | |
| 2.2 | digər maliyyə müəssisələrinin kreditləri | |
| 2.3 | girov əmanətləri üzrə | |
| 2.4 | qiymətli kağızlar üzrə | |
| 2.5 | digər faiz xərcləri | |
| 3 | **Xalis faiz gəliri (zərər) (1-ci sətir çıxılsın 2-ci sətir)** | **7,508.27** |
| 4 | **Qeyri-faiz gəlirləri, cəmi** | **-48.96** |
| 4.1 | məzənnə dəyişməsindən xalis gəlir (itki), cəmi | -48.96 |
| 4.2 | digər qeyri-faiz gəlirləri | |
| 5 | **Qeyri-faiz xərcləri, cəmi** | **3,033.57** |
| 5.1 | əmək haqqı və digər kompensasiya növləri, *cəmi* | **1,321.96** |
| 5.1.1 | əmək haqqı | 1,111.34 |
| 5.1.2 | mükafatlar, kompensasiya və müavinətlərin digər növləri | |
| 5.1.3 | məşğulluq fonduna ayırmalar daxil olmaqla sosial təminat xərcləri | 210.62 |
| 5.2 | BOKT-nin fəaliyyətində istifadə olunan əsas vəsaitlərlə bağlı xərclər, cəmi | **183.83** |
| 5.2.1 | icarə haqları | 140.23 |
| 5.2.2 | amortizasiya | 43.60 |
| 5.2.3 | əsas vəsaitlərin saxlanması üçün maddi-texniki təminat xərcləri | |
| 5.2.4 | əsas vəsaitlərlə bağlı sair xərclər | |
| 5.3 | göstərilmiş xidmətlər üzrə haqqlar | |
| 5.4 | digər qeyri-faiz xərcləri | 1,527.79 |
| 6 | **Əməliyyat mənfəəti (zərəri) (sətir 3 üstəgəl sətir 4 çıx sətir 5)** | **4,425.73** |
| 7 | **Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar (xərclər), cəmi (Girov əmanəti qəbul etmək hüququ olan BOKT-lər üçün)** | **0.00** |
| 7.1 | kredit itkiləri üzrə ehtiyata ayırmalar | |
| 7.2 | investisiya və qiymətli kağızlar üzrə ehtiyata ayırmalar | |
| 7.3 | bank işində istifadə olunmayan əsas vəsaitlər üzrə ehtiyata ayırmalar | |
| 7.4 | digər aktivlər üzrə ehtiyata ayırmalar, o cümlədən | |
| 7.4.1 | faizlər üzrə ehtiyata ayırmalar | |
| 7.5 | balansdankənar aktivlər üzrə ehtiyata ayırmalar | |
| 8 | **Vergilər və gözlənilməz xərclər ödənilənədək xalis mənfəət (zərər) (sətir 6 çıx sətir 7)** | **4,425.73** |
| 9 | **Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçotdakı dəyişikliklərdən mənfəət (zərər),** ***cəmi*** | **0.00** |
| 9.1 | daşınmaz əmlakın satışından mənfəət (zərər) | |
| 9.2 | sair mənfəət (zərər) | |
| 10 | **Vergilər ödənilənədək xalis mənfəət (zərər) (sətir 8 üstəgəl (çıx) sətir 9)** | **4,425.73** |
| 11 | **Mənfəətdən ödənilən vergilər** | 885.15 |
| 12 | **Vergilər ödənildikdən sonra xalis mənfəət (zərər) (sətir 10 çıx sətir 11)** | **3,540.59** |
| 13 | **Pul şəklində qrantlar** | |
| 14 | **Xalis mənfəət (12+13)** | **3,540.59** |
| 14.1 | **Girov əmanəti qəbul etmək hüququ olmayan BOKT tərəfindən yaradılmış və girov əmanəti qəbul etmək hüququ olan BOKT-lər tərəfindən tələblərdən artıq yaradılmış xüsusi ehtiyatlar** | |

Azərbaycan Respublik-nın Auditorlar Palatası
Pənahov Novruz İsmayıl
Sərbəst Auditor
Independent Auditor

AZƏRBAYCAN RESPUBLİKASI
Bank Olmayan Kredit Təşkilatı AZPUL
Məhdud Məsuliyyətli
LIMITED LIABILITY COMPANY

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI**
**AZPUL MMC-nin İdarə Heyətinin**
**sədri cənab Vəliyev Tural Gəray oğluna**

## AUDİT APARILMASININ ŞƏRTLƏRİ

Hörmətli **Tural** müəllim !

Sizin **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC** ilə 01.01.2022-ci il tarixdən 31.12.2022-ci il tarixədək olan dövrun maliyyə hesabatlarının (Balans Hesabatı, Mənfəət və Zərər Hesabatı, Pul Vəsaitlərinin Hərəkəti Hesabatı, Kapitalda Dəyişikliklər Hesabatı) auditinin aparılması haqqında təklifinizi qəbul edərək bu məktub-öhtəliyi təsdiq edirik. Audit standartlarına və digər hüquqi-normativ aktlara əsasən 01.01.2022-ci ildən 31.12.2022-ci ilədək olan dövrün auditi həyata keçiriləcəkdir.

Bizim tərəfimizdən audit Azərbaycan Respublikasının qanunvericilik aktlarına əsasən aparılacaqdır.

Auditin məqsədi 31.12.2022-ci il tarixə **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC -nin** mühasibat (maliyyə) hesabatlarının dürüstlüyü haqqında auditorun fikirini ifadə edən rəy verməkdən ibarətdir.

Audit zamanı, həmçinin təsərrüfat subyektlərinin filial, nümayəndəlik və törəmə müəssisələrinin fəaliyyətinin auditi həyata keçiriləcəkdir. Öz nəticələrimizi əsaslandırmaq üçün Sizin təşkilatın işçilərinin köməyinə ümid edərək daxili nəzarətin vəziyyətinin, uçot məlumatlarının yetərliliyinin və düzgünlüyünün yoxlanılmasında bir sıra prosedurlardan və testlərdən istifadə edəcəyik.

Auditin testlərinin seçilməsindən və digər özünəməxsus xususiyyətlərin, auditlə əhatə olunacaq sənədlərin həcmindən aslı olaraq, qeyri-müəyyənlik və səhvlərin aşkar edilməməsi riski mövcuddur. Biz hər şey edəcəyik ki, həmin riski minumuma endirmək mümkün olsun, lakin nəticənin tam dəqiqliyinə (auditdə qəbul edilmiş ümumi qaydaya əsasən) zəmanət verə bilmərik. Siz mühasibat uçotu və hesabatlarında müəyyən edilmiş qaydadan kənarlaşmaların və mühasibat hesabatlarının qəsdən təhrif edilməsi faktlarının aşkar edilməsi haqqında bizim yazılı hesabatımızla məlumatlandırılacaqsınız.

Bundan başqa, Sizin tapşırığınıza əsasən biz sizə istədiyiniz xidmətləri göstərə bilərik.

Biz auditin aparılmasına dair müqavilənin şərtlərinə və «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən göstərdiyimiz xidmətlərə görə məsuliyyət daşıyacağıq. Biz Sizin təşkilatın kommersiya sirrinə riayət edilməsi üzrə öhdəliyi öz üzərimizə götürürük.

Uçot siyasətinin seçilməsinə və tətbiq edilməsinə, daxili nəzarət və mühasibat yazlışlarının uyğunluğunun təmin olunmasına, ilkin uçot məlumatlarının düzgün əks etdirilməsi də daxil edilməklə mühasibat hesabatlarının tərtib edilməsinin düzgünlüyünə

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC** -nin məsuliyyətini Sizin nəzərinizə çatdırırıq.

Biz Sizdən **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC** -nin rəhbərliyindən xahiş edirik ki, audit üçün təqdim edilən məlumatların tam və dürüst olmasını rəsmi təsdiq edəsiniz.

Ümidvarıq ki, auditin tam aparılması üçün zəruri olan mühasibat sənədləri və digər məlumatlar bizim sərəncamımıza təqdim olunacaqdır.

Ümid edirik ki, Sizin mühasibat hesabatlarınızın dürüstlüyü haqqında bizim fikirimizi dəyişmək məqsədilə hər hansı bir formada bizim əməkdaşlara heç bir təzyiq göstərilməyəcəkdir. Qəbul etdiyimiz audit normalarına əsasən həmin şərtin pozulması auditin aparılmasına dair müqavilənin vaxtından əvvəl dayandırılması üçün əsasdır.

Göstərilən xidmətlərin dəyəri **BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC** ilə bağlanmış müqavilədə öz əksini tapmışdır.

Ayrı-ayrı işlərin dəyəri məsuliyyət dərəcəsinə müvafiq olaraq dəyişə bilər.

Xahiş edirik ki, Sizə təqdim olunan mühasibat hesabatlarının dürüstlüyünün auditinə razılıq haqqında məktub-öhtəliyin surətini imza edib, onun məzmununa dair təklif və iradlarınızı bizə göndərəsiniz.

**Sərbəst Auditor:** **Pənahov Novruz İsmayıl oğlu**

Mühasibat hesabatlarının auditor yoxlamasının şərtləri ilə razıyam.

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI AZPUL MMC -nın**
**İdarə Heyətinin sədri** **Vəliyev Tural Gəray oğlu**